# Biokimya kafedrasının 2016/2017-ci tədris ilinin hesabatı

Biokimya kafedrası 1930-cü ildən sərbəst bir kafedra kimi fəaliyyət göstərir. Bu kafedraya prof. Malenyuk Q.– 3 il, prof. Səfərov H.– 4 il, MEA-nın müxbir üzvü, əməkdar elm xadimi, prof. Həsənov Ə.– 35 il, əməkdar elm xadimi, prof. Rzayev N. – 8 il, son 31 ildir prof. Əfəndiyev A. rəhbərlik edir.

Hazırda kafedrada II kursda 9 kredit həcmində ümumi biokimya (statik, dinamik və funksional biokimya). Bu fənlər universitetin bütün fakültələrində keçirilir. Bundan başqa, bütün fakültələrdə II kursda 2 kredit həçmində biofizika fənni də tədris olunur.

3 ildir ki, VI kurs müalicə-profilaktika fakültəsində 2 kredit həçmində və VI kurs ictimai səhiyyə fakültəsində 8 kredit həçmində klinik biokimya tədris olunur. Məlum olmayan səbəbdən cari tədris ilində ictimai səhiyyə fakültəsinə klinik biokimya əlavə seçim fənni oldu və 2 kredit azaldı.

2016/2017-ci tədris ilində kafedrada tədris işlərini 3 professor, 9 dosent, 11 baş müəllim, 14 assistent məşğul olur. Onlardan 4-ü elmlər doktoru, 27-si tibb və ya biologiya üzrə fəlsəfə doktorudur. Biokimya kafedrasında problem laboratoriya və köməkçi personalla birlikdə 68 nəfər çalışır.

2016/2017-ci tədris ilində kafedranın tədris yükü 17 200 təşkil edib, 2018/2019-cu tədris ilində isə tədris yükü 20 500 saat gözlənilir.

Mühazirələr yalnız professor və dosentlər tərəfindən oxunur. Laboratoriya məşqələləri (həftədə 1 dəfə 4 saat, yəni 2 qoşa saat) keçirilir. Laboratoriya məşqələlərində tələbələr hər dərsdə 2-3 laborator işlərini yerinə yetirilər, nəticələri protokollaşdırırlar, müəllimə təhvil verirlər və müəllim alınan nəticələrin protokolunu imzalayır. Dərsin 1-ci yarısında (60-70 dəq.) qrupun bütün tələbələrindən sorğu aparılır (teoretik və laborator işlərin gedişi). Hər bir bölmənin sonunda kollokvium keçirilir. Kollokvium keçirilməsi kafedrada müzakirə olunub və qərara alınıb ki, kollokviumun adi laborator dərsdən fərqi olmalıdır, çünki kollokvium bütün bölməni əhatə edir və tələbə onu nə dərəcədə mənimsəyib. Tələbəyə 5 sual verilir və hər sual 4 bala qədər qiymətləndirilir. Tələbə hər kollokviumdan 20 bal

toplaya bilər. Təxminən hər kreditin (15 saat) sonunda kollokvium keçirilir. Kollokviumun balları toplanır və kollokviumların sayına bölünərək, orta qiymət alınır. Orta qiymət maksimum 20 bal ola bilər. Qalan 30 balın 10 balı laborator məşqələlərində toplanır (yəni, 8-9 məşqələ ərzində alınan ballar cəmlənir və onların sayına bölünür və maksimum 10 bal alına bilər).

Semestr ərzində hər tələbədən cəmi 2 sərbəst iş qəbul olunur. Tələbələr adi 12 vərəqlik dəftərdə əlyazması ilə 10-11 vərəqdə işi yazır, xarici tələbələrin xətlərini oxumaq mümkün olmağından, onlar 2 sərbəst işi çap şəklində təqdim edirlər. Həmin işləri müəllim yoxlayır və tələbənin cavabından asılı olaraq, tələbə hər işdən 2,3,4, maksimum 5 bal ala bilər. Beləliklə, sərbəst işlərdən tələbə 6,7,8,9 və maksimum 10 bal alır. Qalan 10 bala qədər tələbə dərsə davamiyyətdən ala bilər. Beləliklə, 50 bala qədər alına bilər.

2016/2017-ci t.i. 1200 tələbədən ümumi imtahanların nəticələrinə baxdıqda təxminən 12% tələbə 91 və artıq bal alıb. Təxminən də 8-9% tələbə isə 51 balı toplaya bilmir. Həmin tələbələr şənbə günlərində təkrar dinləmə keçərək, yenidən imtahan verirlər. Statik biokimyadan borcu olan tələbələr VI semestrdə dinamik biokimyaya buraxılmır.

2017/2018-ci tədris ilində, yəni bu qış imtahan sessiyasında ilk dəfə tələbəyə 25 test verilib və onlardan 10 test açıq testlər olub (yəni, qapalı), hər test 2 balla qiymətləndirilib. Sessiyanın nəticələrinə baxdıqda, keyfiyyət nöqteyi-nəzərindən çox acınacaqlı nəticə alınıb, yəni, imtahanda 1200 tələbə iştirak edib və müalicə-profilaktika və əczaçılıq fakültəsinin cəmi 21 tələbə 91 bal (91-dən artıq yoxdur) toplayıb. Təəssüf ki, ictimai səhiyyə, stomatologiya və hərbi-tibb fakültəsinin tələbələrindən heç biri "A" ala bilməyib.

Qeyd etmək lazımdır ki, cari tədris ilində keçmiş illərdən fərqli olaraq, tələbələrin cari mənimcəməsi xeyli yaxşılaşıb. Semestrdə toplanan ballar artıb, universitet rəhbərliyi imtahanların qəbulu ilə bağlı düzgün tədbirlər görüb, açıq testlər olduğuna görə tələbələr semestr ərzində çalışmalarını artırıb. Hazırda olan hallar, yəni 7-dən 20 balla imtahana gedən tələbə çox azdır və 51 bal toplaya bilməyən həmin tələbələrdir.

Düzgün qərarlardan biri də odur ki, 51 bal toplamayan tələbə ödənişli 2-ci dəfə də sessiyada imtahan verə bilir. İmtahana gəlməyən və ya kəsilən tələbələrin sayı xeyli azalıb. Bir müsbət halda var ki, imtahan sessiyası bitəndən sonra daha imtahan qəbul olunmur.

Gələn tədris ilində açıq testlərin sayının artırılması məqsədə uyğundur, hətta bəzi vacib fənlərdən imtahanların yazılı olması da məqsədə uyğundur. Belə hallar olsa, tələbələr semestr ərzində çalışacaq ki, nisbətən yüksək ballar toplasınlar.

**Tədris-metodik işlərdən** qeyd etmək istərdim ki, hər semestrin 1-ci dərsində hər tələbə fənnin proqramı ilə təmin olunur. Həmin proqramda ümumi proqramdan başqa, semestrin təqvim-mövzu planı, hər laborator dərsində soruşulan suallar (teoretik və laborator işlərdən 10-15 sual), sərbəst işlərin və prezentasiyaların mövzuları vardır. 1-ci dərsdə hər tələbəyə verilmiş proqramdan 2 sərbəst iş verilir. Tələbələr sərbəst işləri adətən kollokvium dərslərində təhvil verirlər, axırıncı 15-ci dərsdə yalnız 1 sərbəst iş təhvil verə bilərlər. 5-6 dərs keçdikdə və 1-ci kollokviumdan 20 baldan ən azı 16 bal alan tələbələrə prezentasiya mövzusu təklif olunur, tələbənin razılığı olduqda ona mövzu verilir. Təxminən 1-2 ay ərzində tələbə mövzunu mətnlə, sxemlərlə, şəkillərlə və s. hazırlayır dərslərin birində diskə yazılmış elektron variantını müəllimə təhvil verir. Müəllim sərbəst işi yoxlayır və bəyənirsə, məruzə etmək üçün gün ayırır və dərslərin birində təxminən 10 dəq. ərzində tələbə məruzə edir. Prezentasiya mövzusundan tələbə 8,9 və ya 10 bal ala bilər. Hər semestr ərzində 1200 tələbədən təxminən 50-60 prezentasiya mövzuları dinlənilir. Adətən belə tələbələrin semestr balı 45-dən 50-yə qədər olur.

Hər müəlimdə çap şəklində (kitabça) tələbələrə verilən proqram, həm də sillabus (dərsin vaxt bölgüsü) var. Ümumiyyətlə, 4 saatlıq dərs elə bölünür ki, dərsin axırıncı 20-30 dəqiqəsi müəllim tərəfindən növbəti dərsdə keçirilən mövzu haqqında "mikromühazirə" şəklində izahatlar verilir. Bu çox vacibdir, ona görə ki, mühazirə saatları çox azdır və mühazirə oxuyan müəllim mövzunu tam əhatə edə bilmir. Demək olar ki, biokimyadan 10 bölmə var, hər bölmədən 1 mühazirə oxunur, o mühazirələr də demək olar ki, icmal xarakteri daşıyır.

Biokimya dərsi  hər qrupda həftədə 1 dəfə – 4 saatlıq olur. Kafedrada hər həftənin 4-cü günləri saat 12.00-dan 12.25-ə qədər qısa iclas olur (həftə 5-ci gündən başlayıb) və növbəti həftədə keciriləçək dərsin metodikası müzakirə olunur və tapşırıqlar verilir.  Bu ona görə keçirilir ki, dərslər bütün qruplarda  eyni keçirilsin və tələbələrə yeni məlumatlar verilsin, müəllimlər özfəaliyyətlə məşğul olmasınlar.

Hər semestrdə 8-10 açıq dərs keçirilir. Açıq dərslərdə həmin saat dərsi olmayan müəllimlər iştirak edir və  növbəti  həftənin iclasında  dərsdə iştirak edən müəllimlər öz iradlarını bildirirlər.

Bu yaxınlarda, yəni fevralın 22-sində kafedranın baş müəllimi b.ü.f.d. Akif Hacıyevin açıq mühazirəsi keçirilərək, diskə yazılıb. Bu il  31 yanvarda  müsabiqə elanı verilib və A.Hacıyevin dosent vəzifəsini tutmaq üçün keçirilən açıq mühazirəsinin diski universitetin elmi katibliyinə verilib. Mühazirədə kafedra müdiri və dosentlər  iştirak ediblər. A.Hacıyevin açıq mühazirə dərsi kafedranın 01.03.2018-ci ildə tarixli iclasında müzakirə olunaraq, yüksək qiymətləndirilib.

Həmin həftə də təcrübəli baş müəllim N.K.Niyazovanın açıq laborator məşqələsi keçirilib (yenidən vəzifəyə seçilmək üçün, müsabiqə elanı ilə əlaqədar) və dərsdə  kafedranın müəllimləri iştirak edib. Keçirilən açıq laborator məşqələsi 01.03.2018-ci ildə tarixli iclasında müzakirə olunub.

Kafedrada demək olarki, bütün müəllimlər  testlərin tərtib olunmasında iştirak edir. Hər semestrin əvvəlində  hər iki müəllimə  hər-hansı bölmədən test tərtib etməyi tapşırılır. Hər testin axırında dərslikdə testin düzgün cavabı olan  səhifə göstərilir. 1-1,5 aydan sonra onlar toplanır və kafedranın ekspertləri (5 nəfər) onları seçir və yoxlayır.

Bu tədris ilində açıq testləri yalnız 3 ekspert (100 test imtahana və 20 nümunəvi testlər tələbəyə verilib)  hazırlayıb və verilən 7 test variantlarının 5-dən istifadə olunub.

Kafedranın əməkdaşları  tərəfindən dərsliklər  və dərs vəsaitləri hazırlanaraq, çap olunub.

II kurs tələbələri üçün 2 cildli "İnsan biokimyasının əsasları" adlanan dərsliklərin 3-cü nəşri (2015-ci ildə), "Biokimyadan laborator məşqələləri" dərs vəsaiti (2010-cu ildə), "Patoloji və klinik biokimya" dərsliyi (2010-cu ildə). Bundan başqa, müxtəlif bölmələrə aid 15-ə qədər tədris-metodik vəsaitlər çapdan çıxmışdır.

Qeyd etmək lazımdır ki, hər tədris ilinin əvvəlində verilən sifarişlər əsasında universitet tərəfindən müxtəlif reaktivlər, reaktiv dəstləri, ölçülü pipetlər, şüşə qablar, sınaq şüşələri, qıflar, təsərrüfat malları alınır və istifadəyə verilir.

Hazırda kafedraya lazım olan müxtəlif multi-media avadanlığına ehtiyac vardır (kompyüter, kseroks aparatı, printer və s.) bu yaxınlarda onların da alınması gözlənilir.

Kafedrada biokimyadan və biofizikadan mühazirələr multi-mediadan istifadə edərək keçirilir.

Biofizika fənni cəmi 2 kredit həcmində – müalicə-profilaktika I, stomatologiya və hərbi-tibb fakültələrində III-cü, müalicə-profilaktika II, ictimai səhiyyə və əczaçılıq fakültələrində IV-cü semestrdə tədris olunur. Biofizika elmi biokimya elmi ilə sıx əlaqədardır. Çünki biokimya insan orqanizmində gedən kimyəvi, biofizika isə biofiziki prosesləri öyrənir.

Biofizika fənni 6 müəllim – 3 dosent, 2 baş müəllim və 1 assistent tərəfindən tədris olunur. Həmin müəllimlər biofizika ixtisası üzrə müdafiə ediblər və biologiya üzrə fəlsəfə doktorlarıdır, 2 müəllim Moskva şəhərində Biofizika İnstitutunda biofizika üzrə aspiranturanı bitiriblər, biologiya və biofizikadan ixtisas imtahanları verib, fizika-riyaziyyat üzrə fəlsəfə doktorlarıdır.

Biofizika fənnindən "Biofizika kursu" və "Biofizikadan laborator məşqələləri" adlı dərs vəsaitləri vardır.

Qeyd etdiyim kimi, müalicə-profilaktika fakültəsinin VI kursunda 30 saat həcmində (5 gün 6 saatlıq dərs) klinik biokimya tədris olunur və hazırlanan testlər daxili xəstəliklər imtahanına əlavə olunur.

İctimai səhiyyə fakültəsində klinik biokimya və klinik laborator diaqnostika fənləri mükəmməl keçirilməlidir.

Bildiyiniz kimi, tibbi-biologiya fakültəsinə 3 ildir qəbul dayandırılıb. Bu fakültədə biokimya fənni 6 semestr ərzində (ümumi, patoloji və klinik biokimya) tədris olunurdu və V kurs tələbələri Dövlət Attestasiyası üzrə klinik biokimyadan və klinik biofizikadan imtahan verirdilər. Tələbələr rezidenturaya qəbul olunanda təməl fənn kimi biokimya və ixtisas fənni kimi klinik biokimyadan qəbul imtahanı verirdilər. Hazırda isə son 2 ildir ki, ictimai səhiyyə fakültəsində klinik biokimya və klinik laborator diaqnostika fənlərinə çox cüzi saat ayrılıb.

Klinik laborator diaqnostika fənni 3 hissədən ibarət olaraq, məcburi fənn olmalıdır. Yəni, klinik biokimya, klini mikrobiologiya və klinik immunologiya fənlərinin birləşdirilməsi olmalıdır.

Bu məsələ barəsində univeristetin rektoru ilə bizim söhbətimiz olub və onun tapşırığı ilə bu fənlərin tədrisi yenidən qurulacaq.

Söhbət ondan gedir ki, son illər laboratoriya işi ixtisasına yalnız ictimai səhiyyə fakültəsinin tələbələri gəlir. Onlar ixtisas fənlərindən – gigiyena və epidemiologiyadan imtahaları verib, "laboratoriya işi" ixtisasına daxil olurlar. Halbuki, "laboratoriya işi" ixtisasına daxil olan tələbələr təməl fənn kimi biokimya və ikinci mərhələdə "klinik biokimya" və "klinik laborator diaqnostika" fənlərindən ixtisas imtahanı verməlidirlər. Təəssüf ki, hazırda V və VI kursda 14 müxtəlif gigiyena fənləri tədris olunur, lakin tələbələr gigiyenadan rezidenturaya həvəs göstərmirlər. ATU-nun "Klinik-biokimyəvi laboratoriyası"nda hər tədris ilində müxtəlif ixtisaslarda oxuyan rezidentlər 10-15 gün ərzində klinik biokimyadan rotasiya keçirlər. Hər tədris ilində təxminən 80-dən çox rezident laboratoriyada klinik biokimya və klinik laborator diaqnostikadan rotasiya keçir.

Qeyd etməliyəm ki, 10 ildir ki, kafedranın 30 professor-müəllim heyəti tərəfindən kafedranın fonduna hər ay 300 manat pul yığılır. Bu pullar əsasən kafedranın tədris işlərinə və elmi-tədqiqat işlərinin müasir, bahalı reaktiv dəstlərinin alınmasına sərf olunur. Məsələn, cari tədris ilində hər 10 tədris laboratoriyası dərs vəsaiti ilə təmin olunub. Bunun üçün hər tədris laboratiyası fənnin müxtəlif bölmələrini əhatə edən 15 rəngli plakatlarla təmin olunub (plakatlar hər laboratoriyada divardan asılıb). Eyni zamanda bəzi plakatlar (karbohidratlar, zülal,

lipid metabolizminə aid) yenisi ilə əvəz edilərək, kafedranın stendlərindən asılıb. Yığılan vəsaitin bir hissəsi kafedraya il ərzində (təcili lazım olan reaktiv, xromatoqrafiya və filtr kağızları, çap işləri), bir hissəsi isə təmir işlərinə (su kranı, qapı qıfılı və s.) xərclənir.

**Elmi-tədqiqat fəaliyyəti**

Kafedrada elmi-tədqiqat işləri həm kafedranın professor-müəllim heyəti, həm elmi-tədqiqat laboratoriyasının əməkdaşları tərəfindən yerinə yetirilir. Kafedra əməkdaşlarının yerinə yetirdikləri elmi mövzu "Müxtəlif patoloji vəziyyətlərdə bəzi antimikrob peptidlərin və sitokinlərin tədqiqi» adlanır.

2016/2017-ci illərdə kafedra əməkdaşlarının 41 elmi iş çap olunmuşdur. Onlardan 11 məqalə xarici jurnallarda, 30 məqalə və tezis respublika jurnallarında və konfranslarda çap olunmuşdur. Kafedranın əməkdaşları 2016/2017-ci illərdə xaricdə keçirilən qurultay və konfranslarda məruzələrlə çıxış ediblər. Bunlardan Rusiyanın Soçi şəhərində V Rusiya Biokimyaçılar qurultayında, VI Beynəlxalq riyazi biologiya və bioinformatika konfransında (Moskva, Puşşino şəhərində), Pakistanın Karaçi şəhərində prof. Əzizova G.İ. ingilis dilində 14-cü Evrasiya kimya konfransında, Sankt-Peterburqda keçirilən Beynəlxalq simpiziumda, Türkiyənin Ərzurum şəhərində keçirilən Beynəlxalq Biokimya konqresində 2 məruzə ilə çıxış etmişdir. Bunlar müxtəlif təşlikatların və firmaların sponsorluğu ilə həyata keçirilib.

Biokimya kafedrasının elmi-tədqiqat laboratoriyasının əməkdaşları "β-talassemiyalar, fermentopatiyalar və struktur-anomal hemoqlobinlər zamani dəmir mübadiləsinin pozulmalarının biokimyəvi xüsusiyyətləri" mövzusunda elmi işi yerinə yetirirlər. 2016/2017-ci illərdə laboratoriyanın əməkdaşları tərəfindən 11 məqalə və 15 tezis, onlardan 5 məqalə və 7 tezis xaricdə çap olunmuşdur.

**Elmi kadr hazırlığı**

Ümumiyyətlə, son 30 ildə kafedrada 3 elmlər doktoru və 27 fəlsəfə doktoru üzrə kadr hazırlanıb. Onlardan son 3 ildə 1 doktorluq və 4 fəlsəfə doktoru dissertasiyası müdafiə olunub və AAK tərəfindən təsdiq olunub.

Hazırda kafedrada rəsmi doktoranturaya qəbul olunan 1 elmlər doktoru, 4 doktorant fəlsəfə doktoru və 5 dissertant elmi-tədqiqat işlərini yerinə yetirirlər. Onların elmi rəhbərliyini prof. A.M.Əfəndiyev, prof. F.Q.İslamzadə və prof. T.Ə. Əsgərova və prof. G.İ.Əzizova həyata keçirir.

2016/2017-ci tədris ilində 2 fəlsəfə doktorunun rəsmi müdafiəsi keçirilib və AAK tərəfindən təsdiq olunub. Bir dissertantın işinin ilkin müzakirəsi keçirilib və Dissertasiya Şurasına təhvil verilib.

Bu il Səhiyyə Nazirliyi doktoratura və dissertanturaya hərəsinə 1 yer ayırıb. 1 doktorantura yerinə 5 ərizə verilib. Onlardan da başqa 1 yer elmlər doktoru yeridir.

**Tələbə Elmi Cəmiyyəti**

Hər tədris ilində kafedrada tələbələrin elmi cəmiyyətinin konfransı keçirilir. Ümumiyyətlə demək olar ki, hər müəllim tərəfindən 1-2 tələbəyə elmi mövzu verilir. Bu elmi mövzular tədris ilində hazırlanır, müəllimlər tərəfindən yoxlanılır, təcrübəli və nəzəri şəkildə, yüksək səviyyədə 6-7 iş konfransda dinlənilir və mükafatlanır. Təəssüf ki, ictimai səhiyyə fakültəsinin tələbələri buna nadir hallarda həvəs göstərirlər.

**Səhiyyə təşkilatlarına və Universitet kafedralarının doktorantlarına və dissertantlarına metodik kömək**

Hər tədris ilində müxtəlif xəstəxanaların və kafedraların doktorant və dissertantlarına klinik-biokimya laboratiyasında və kafedranın elmi-tədqiqat laboratoriyasında Universitetnin elmi-tədqiqat işləri üzrə prorektorunun məktublarına əsasən elmi işlər aparan tədqiqatçılar göndərilir və onlara metodik kömək göstərilir. Onlardan ən aktiv tədqiqat aparan stomatoloji klinikanın əməkdaşlarının işləri olur. Onların gətirdikləri ağız suyunda müxtəlif tədqiqatlar aparılır.